- obyenktin növü (istehsalat mərkəzi, anbar, ticarət ofisi, korporasiyanın baş idarəsi və s.);
- region, telefon, faks nömrələri;
- müdirin və menecerlərin soyadları;
- maliyyə rekvizitləri, anbar binalarının xüsusiyyətləri və s.

Bunları qısa rəqəmli kodla təsvir etmək olar - yəni GLN-lə.
İdentifikasiya üçün qlobal yerləşdirmə kodu 13-rəqəmli nömrə şəklində təsvir olunur.




GS1 Azərbaycan Cəmiyyəti hər bir üzv təşkilatına Qlobal yerləşdirmə kodu veri.
Misal üçün, 476 NNNNN 9999 C.
Burada NNNNN - GS1 Azərbaycan Cəmiyyətinin məlumat bazasında müəssisənin nömrəsidir, C - nəzarət rəqəmidir.
Vacibdir! Beynəlxalq Qlobal Yerləşdirmə İdentifikasiya Nömrəsi əmtəənin bağlamanın üzərinə GTİN ştrixkodu kimi vurulmur!
GLN nömrəsinin ştrixkod şəklində təsvir edilməsi zərurəti yarandıqda (məsələn, nəqliyyat etiketlərinə vurulduğu zaman) GS1-128 simvolikasından istifadə edilir. Bu simvolikanın köməyi ilə ştrixkod şəklində təsvir edilən GLN, fiziki olaraq yerləşə bilər:

- «Alıcı - təchizatçı» əməliyyat iştirakçılarının identifikasiyası üçün ticarət vahidinin üzərində;
- Yükgöndərənin və yük qəbuledənin identifikasiyası üçün nəqliyyat vahidinin üzərində;
- Təchizat və göndərilmə yerinin fiziki yerləşməsinin identifikasiyası üçün sənədlərin üzərində;

Həmçinin GLN avtomatik identifikasiyada fiziki obyektlərin və ünvanların göstərilməsi və nəqliyyat vahidlərinin üzərində məlumatların qeyd edilməsi üçün istifadə olunur. Yerləşmə nömrələri elektron ticarət üçün zəmin yaradır, çünki bu növ ticarətdə əsas şərt odur ki, ticarəti həyata keçirən bütün müəssisələr eyni yerləşmə kodlaşdırılması standartından istifadə edirlər. GLN nömrəsini istifadə edərkən, zəruri məlumat şəbəkə ilə bir dəfə ötürülür, kompüter fayl şəklində yaddaşda saxlayır və sonradan yenə də unikal standart GLN nömrəsi vasitəsilə əldə edilir.
Hər hansı sifarişi, hesabı, məlumatı, sorğunu göndərərkən MƏLUMATI GÖNDƏRƏN və MƏLUMATI ALAN GLN identifikasiya nömrələri ilə təsvir olunur.
Misal üçün,
KİMDƏN 4760002199992
KİMƏ 4760011199990
GLN nömrələri vasitəsilə GS1 Azərbaycan Cəmiyyətinin saytında GEPİR Qlobal Elektron Registrdən istehsalçı haqqıda məlumatı əldə bilərsiniz.